AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**ƏDALƏT BABA OĞLU ƏZIZOV**

# ƏHALİYƏ MƏİŞƏT-KOMMUNAL XİDMƏTİNİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**(SUMQAYIT ŞƏHƏRI TIMSALINDA)**

**İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

# AVTOREFERATI

**Bakı – 2014**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** İqtisad elmləri doktoru, professor
**T.N.Əliyev**

**Rəsmi opponentlər:** İqtisad elmləri doktoru, prof.
**S.Q.Cümşüdov**

İqtisad elmləri namizədi, dos
**Y.Ə.Məmmədov**

**Aparıcı təşkilat:** **Əmək və Sosial Problemlər üzrə ETTM**

Müdafiə 31 01 2014-cu il tarixində saat ____-da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutu nəzdindəki FD.01.181. Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: Az 1043, Bakı şəhəri, Hüseyn Cavid prospekti 31, AMEA iqtisadiyyat İnstitutu

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____________________2013-cu il tarixində göndəril-mişdir.

**FD.01.181. DissertasiyaŞurasının**
**Elmi katibi İqtisad üzrə**
**fəlsəfə doktoru, dos.** **G.S.Hacıyeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Qloballaşan dünyada iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təsərrüfat təcrübəsi göstərir ki, qeyri-istehsal sahələrinin maddi-istehsal sahələrinə nisbətən üstün artması qanunauyğun bir haldır. Bu sahələrin inkişaf səviyyəsi ölkələrin iqtisadi inkişafının və bütünlükdə iqtisadi sistemin səmərəli fəaliyyətinin əsas göstəricisidir. Qeyri-istehsal sahəsi qeyri-maddi nemətlər və xidmətlər yaradan sahələrin məcmusu kimi mürəkkəb tərkibə malikdir. Bütün dövrlərdə xidmət sahələrinin genişləndirilməsi, təşkilinin daim yaxşılaşdırılması, xidmətin keyfıyyətinin yüksəldilməsi sosial məsələ kimi ümumdövlət əhəmiyyəti kəsb edir. Pullu xidmətlər bazarında məişət və kommunal xidməti öz sosial- iqtisadi mahiyyətinə görə xüsusi rol oynayır və əhalinin gündəlik tələbatını ödəməkdə daha fəal çıxış edir, mühüm xalq təsərrüfatı səmərəsi əldə etməyə imkan yaradır. Xidmət ictimai və fərdi tələbatın ödənilməsi mexanizmi kimi çıxış edir və ictimai təkrar istehsalın mühüm həlqəsidir.

Bazar iqtisadiyyatlı ölkələrdə Ümumi Daxili Məhsulun (ÜDM) tərkibində xidmət sferasının xüsusi çəkisi 70%-dən çoxdur. Bir çox ölkələrdə bu göstərici daha yüksəkdir. Lakin Azərbaycanda 2011-ci ildə ÜDM-in tərkibində xidmətlərin xüsusi çəkisi 28,3% təşkil etmişdir. Deməli, bu sahədə daha təsirli tədbirlərin həyata keçirilməsinə zəruri ehtiyac duyulur. Odur ki, Azərbaycan hökumətinin həyata keçirdiyi geniş miqyaslı sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən biri xidmət sferasını genişləndirməkdir. Suverenlik illərində vergi və pul-kredit sisteminin təkmilləşdirilməsi, regionların sosial-iqtisadı inkişafı, eləcə də sahibkarlığın inkişafı üzrə münbit şəraitin yaranması, dövlətin sosial sferaya diqqətinin artırılması, sosial və investisiya yönümlü büdcənin formalaşması pullu xidmət sferasının əsaslı şəkildə inkişafına təkan vermişdir. Artıq ölkəmizdə pullu xidmət bazarı formalaşmışdır. Əgər 1995-ci ildə Azərbaycanda əhaliyə göstərilən pullu xidmətin həcmi 167,5 mln. manat, o cümlədən məişət xidmətinin həcmi 29,5 mln. manat təşkil etmişdirsə, 2000-ci ildə həmin göstərici uyğun olaraq 477,2 mln. manat və 119,4 mln. manat, 2011-ci ildə isə - 5332,4 mln. manat və 662 mln. manata çatmışdır. Başqa sözlə, həmin dövrdə ölkə əhalisinə göstərilən pullu xidmətin həcmi 31,8 dəfə, məişət xidmətinin həcmi isə - 22,4 dəfə artmışdır.

Əhaliyə göstərilən pullu xidmətin, o cümlədən məişət xidmətinin iqtisadi regionlar üzrə təhlili göstərir ki, 2011-ci ildə bütün pullu xidmətlərin 64,4%-dən çoxu Bakı şəhərinin; 8,5%-i - Gəncə-Qazax; 4%-i Lənkəran; 9,6%-i - Aran iqtisadi rayonlarının payına düşür. Ölkənin iri şəhərlərinin məişət xidmətindəki xüsusi çəkisi Gəncə şəhəri üzrə - 2,76%; Sumqayıt şəhəri - 2,35%; Şirvan şəhəri - 0,72%; Mingəçevir şəhəri - 0,76% təşkil etmişdir.

Göründüyü kimi, ölkəmizin mərkəzi şəhərləri içərisində Bakı və Gəncə şəhərlərindən sonra Sumqayıt şəhərində əhaliyə göstərilən pullu xidmətin həcmi üçüncü yerdə qərarlaşmışdır. Lakin şəhərdə geniş sosial struktur obyektləri mövcuddur və onlar öz fəaliyyətini ildən-ilə genişləndirirlər. Regionların sosial- iqtisadi inkişafı Dövlət Proqramlarının icrası ilə əlaqədar, şəhərdə adı çəkilən obyektlərin sayı ildən-ilə artmaqdadır. Şəhərdə aparılan geniş miqyaslı tikinti- quraşdırma işləri də pullu xidmətin həcminin artmasına təkan vermişdir.

Şəhər ərazisində və şəhərətrafı qəsəbələrdə kommunal məişət obyektləri qeyri-bərabər şəkildə yerləşirlər. 1996-2009-cu illər ərzində 260 məişət xidməti obyektləri ləğv edilmişdir. Yeni yaşayış sahələrində məişət-kommunal xidməti obyektləri yaratmaq üçün tələb olunan istehsal sahələri ayrılmır. Həmin sferada rəqabət mühitinin yaradılması, yeni xidmət növləri və formalarının tətbiqi, xidmət mədəniyyətinin yüksəldilməsi, mövcud obyektlərin maddi-texniki bazasının yaxşılaşdırılması, müvafıq normativ-texniki sənədlərin tərtibi və istifadəsi, sahibkarlığa dəstəyin dövlət və bələdiyyə alətlərinin və kredit siyasəti mexanizminin tətbiqi, kiçik biznes subyektlərinin fəaliyyətinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, onların sosial səmərəliliyinin yüksəldilməsi, maliyyə resurslarından istifadə imkanlarının genişləndirilməsi, peşəkar kadrların hazırlanması və ixtisaslarının artırılması, bütünlükdə məişət-kommunal xidmətinin həcminin strukturunun təkmilləşdirilməsi və sahə qruplarının inkişaf etdirilməsiistiqamətində kompleks sosial-iqtisadi, investisiya-innovasiya xarakterli tədbirlərin həyata keçirilməsinə zəruri ehtiyac duyulur. Odur ki, məişət-kommunal xidmətinin təşkili və idarə edilməsi mexanizminin təkmilləşdirilməsi məsələləri müasir dövrün gerçəkliyi müstəvisində böyük aktuallıq kəsb edir.

**Problemin öyrənilmə səviyyəsi.** Məişət-kommunal xidmətinin təşkili və idarə edilməsinin təşkilati, sosial-iqtisadi aspektləri keçən əsrin 70-80-ci illərində Azərbaycanda bir çox iqtisadçı alimlər tərəfindən geniş tədqiq edilmişdir. Onlardan V.T.Novruzovun, K.B.Tağıyevin, S.S.Rəhimovun, T.N.Əliyevin, M.Babayevin, F.M.Zeynalovun,

K.S.Qafarovun, F.H.Rəsulovun və başqalarının əsərlərində problemin müxtəlif aspektləri tədqiq edilmiş və onların nəticələri bir neçə Məqsədli Proqramların: «Elmi-texniki tərəqqi», «Xalq istehlakı malları», «Sahələrin yerləşdirilməsinin baş sxemi», «İri məişət-kommunal obyektlərinin tikintisinin texniki-iqtisadi əsaslandırılması», «Xidmət növləri üzrə işçilərin normativ sayının hesablanması», «Ali və orta ixtisas təhsilli mütəxəssislərin nümunəvi vəzifə nomenklaturası» kimi iri həcmli, respublika əhəmiyyətli elmi-tədqiqat işlərinin yerinə yetirilməsində istifadə edilmişdir. Həmin alimlərin əsərlərində - sosioloji tədqiqatların məlumatları əsasında məişət-kommunal xidməti obyektlərinin yerləşdirilməsi, onlara əhalinin tələbatının müəyyən edilməsi, yeni regional və sahə xarakterli birliklərin yaradılması, yeni xidmət növləri və formalarının tətbiqi geniş yer almış və nəticələrin yüksək səmərəliliyi ilə fərqlənmişdir. Dissertasiya işi yerinə yetirilərkən, kiçik və orta sahibkarlığın təşkili, onların investisiya təminatı, orada məşğulluq problemi məsələlərinə həsr edilmiş görkəmli alimlərdən ~ Z.Səmədzadə, Ş.Muradov, A.Nadirov, İ.Alıyev, T.Hüseynov, T.Quliyev, A.Şəkərəliyev, A.Abbasov, Ş.Səmədzadə, F.Qasımov, Ş.Qafarov, M.Atakişiyev, R.Cəbiyev, R.Sultanova, G.Yüzbaşıyeva, S.Cümşüdov və başqalarının əsərlərindən istifadə edilmişdir.

Tədqiqat işi aparılarkən müəllif xarici alimlərdən - A.Smit, D.Keyns, K.Marks, F.Kotler, T.Koryagina, Y.Sviridenko, T.Sofına, L.Duxovnaya, Y.Jiltsov, K.Xaksever, 0,Şabanova, L.Korjneva və başqalarının nəzəri baxışları ilə tanış olmuş və onlar tədqiqat işinin gedişində bu və ya digər formada istifadə olunmuşdur.

Aparılan elmi-tədqiqat işlərinin, yazılmış monoqrafiya və məqalələrin əhəmiyyətini yüksək qiymətləndirməklə yanaşı qeyd etmək lazımdır ki, suverenlik illərində regional aspektdə məişət-kommunal xidmətinin təşkili və idarə edilməsi məsələləri sistemli şəkildə tədqiq edilməmiş və tədqiqat obyekti kimi çıxış etməmişdir.

Beləliklə, problemin mühüm sosial-iqtisadi əhəmiyyətə malik olduğunu nəzərə alaraq, tədqiqatın məqsədi və vəzifələri müəyyən edilmişdir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işının məqsədi bazar münasibətlərinin formalaşdığı şəraitdə əhaliyə məişət-kommunal xidmətinin təşkilinin nəzəri-metodoloji və əməli aspektlərini tədqiq edib, ehtiyat imkanlarını aşkara çıxarmaq, onun inkişafı və idarə edilməsi mexanizminin təkmilləşdirilməsi üzrə tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Bu məqsədə çatmaq üçün tədqiqatın vəzifələri aşağıdakı kimi müəyyən edilmişdır:

- Məişət-kommunal xidmətinin təşkili və idarə edilməsinin nəzəri-metodoloji aspektlərini tədqiq etmək;
- Məişət-kommunal xidmətləri sferasında kiçik sahibkarlıq subyektlərinin yaradılmasının metodoloji aspektlərini və təşkilati-iqtisadi mexanizmini tədqiq edib formalaşdırmaq;
- Sumqayıt şəhərinin timsalında əhaliyə göstərilən məişət-kommunal xidmətinin növlər üzrə təşkilinin mövcud vəziyyətini çoxillik statistik və ilkin uçot sənədlərinin, sosioloji tədqiqatların məlumatları əsasında təhlil edib qiymətləndirmək və ehtiyatları aşkara çıxarmaq;
- Məişət-kommunal xidməti göstərən kiçık sahibkarlıq subyektlərınə dəstək sisteminin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etmək;
- Məişət-kommunal xidmətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi üzrə təklif və tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqatın obyekti** Sumqayıt şəhərində əhaliyə məişət-kommunal xidməti göstərən sahibkarlıq subyektləridir.

**Tədqiqatın predmeti** Əhaliyə məişət-kommunal xidmətinin təşkili və idarə edilməsinin nəzəri-praktiki aspektləridir.

**Tədqiqatın nəzəri - metodoloji əsaslarını** xarici və respublika iqtisadçı alimlərinin tədqiqatları, müasir iqtisadi nəzəriyyənin əsas müddəaları, Azərbaycan Respublikasının Qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin Qərarları, İqtisadi İnkişaf Nazirliyinin təlimatları təşkil edir.

Tədqiqat prosesində statistik qruplaşdırma, müqayisəli-iqtisadi təhlil, sistemli yanaşma, sosioloji sorğu üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin «Ticarət və xidmət», «Azərbaycanın regionları» adlı statistik məcmuələrinin, «Sosial iqtisadi inkişaf» aylıq statistik bülletenlərinin, Sumqayıt şəhər Baş arxiv idarəsinin, şəhər üzrə pullu xidmət göstərən müəssisələrin icra və vergi orqanlarına təqdim etdikləri hesabat sənədlərinin, eləcə də şəhər Bələdiyyəsinin məlumatlarından, əhali arasında aparılan sorğunun nəticələrindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

> Əhaliyə məişət-kommunal xidmətinin təşkili və idarə edilməsinin nəzəri məsələləriilk dəfə kompleks şəkildə tədqiq edilmişdir;
> Xidmət sferasında sahibkarlıq subyektlərinin yaradılmasının səmərəliliyinin qiymətləndirilməsi metodikası təklif edilmişdir;
> Kommunal xidmət fəaliyyətinin iqtisadi mexanizminin prinsipial sxemi işlənib hazırlanmışdır;
> Sumqayıt şəhərində əhaliyə göstərilən məişət-kommunal xidmətlərinin təşkilinin mövcud vəziyyəti kompleks və sistemli şəkildə təhlil edilib qiymətləndirilmişdir;
> Sumqayıt şəhərində əhaliyə göstərilən məişət xidmətinin idarə edilməsinin təkmilləşdirilməsinin istiqamətləri təklif edilmişdir;
> Məişət-kommunal xidmətləri göstərən kiçik sahibkarlığa dövlət dəstəyinin istiqamətləri, formaları, sahibkarlığın inkişafı üzrə stimullaşdırıcı iqtisadi- hüquqi nıühitin formalaşması alətləri, kredit siyasətinin mexanizmi təklif edilmişdir;
> Sumqayıt şəhəri üzrə əhalinin məişət-kommunal xidmətinin həcminin proqnozu hesablanmış, xidmət müəssisələrinin rəqabət qabiliyyətini əks etdrən kompleks amillərin və xidmətin keyfiyyətinin formalaşmasının prinsipial sxemi, eləcə də xidmət müəssisələrində keyfıyyət menecmenti sisteminin tətbiqi prosesinin mərhələləri elmi cəhətdən əsaslandırılmış, təklif və tövsiyyələr işlənilmişdir.

**Tədqiqat işinin nəzəri-praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqat zamanı alınmış nəticələrdən regional sosial-iqtisadi inkişaf və sahə Proqramlarının tərtib olunmasında, məişət-kommunal xidməti sferasında mövcud iqtisadi potensiallardan, maliyyə resurslarından istifadə edilməsində, həmin sferada kiçik sahibkarlığın inkişafı üzrə stimullaşdırıcı iqtisadi-hüquqi mühitin dövlət siyasətinin formalaşmasında, mütərəqqi idarəetmə formalarının tətbıqində, yeni xidmət növləri və formalarının tətbiqində, lokal investisiya layihələrinin həyata keçirilməsində istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin ayrı- ayrı müddəaları, irəli sürülən əməli təkliflər və tövsiyələr AMEA-nın Elmi İnnovasiyalar Mərkəzində keçirilən «Ölkə iqtisadiyyatının inkişafında elmi innovasiyaların rolu» III Beynəlxalq Elmi-Praktiki Konfransında (Bakı, 2009), Akademik Z.Səmədzadənin 70 illik yubileyinə həsr edilmiş «Keçid dövrünün iqtisadiyyatı, onun qanunauyğunluqları və xüsusiyyətləri. Milli inkişaf modelinin

formalaşması problemləri» mövzusunda keçirilən Elmi-Praktiki Konfransda (Bakı, 2010), Sumqayıt şəhərində keçirilən müxtəlif xarakterli konfranslarda, seminarlarda məruzə edilmişdir.

Tədqiqat nəticəsində irəli sürülən təklif və tövsiyələr Sumqayıt şəhər İcra Hakimiyyətinə, Sumqayıt şəhər Bələdiyyəsinə və Sumqayıt şəhər MəşğulluqMərkəzinə təqdim edilmiş və onların istıfadə olunması haqqında müvafiq arayışlar alınmışdır.

**Dərc olunmuş məqalələr.** Dissertasiya işinin mövzusu üzrə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, respublika və beynəlxalq səviyyəli Elmi-Praktiki Konfranslarda 6 məqalə (onlardan 2-i xaricdə), bir konfrans materialı və bir tezis nəşr edilmişdir.

**Işin həcmi və quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işi34 cədvəl, 19 şəkil və sxemi, özündə əks etdirən 159 səhifə həcmindədir.

**Tədqiqatın əsas məzmunu.**

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti göstərilir, işin elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh edilir.

Dissertasiyanın **«Bazar münasibətləri şəraitində xidmət sahələrinin inkişafının nəzəri-metodoloji aspektləri»** adlı birinci fəslində xidmətin iqtisadi mahiyyəti və məzmunu, məişət-kommunal xidməti sahələrində kiçik sahibkarlıq subyektlərinin yaradılmasının metodoloji aspektləri, həmin xidmətlərin təşkilati- iqtisadi mexanizminin formalaşmasının nəzəri əsasları respublikamızın və xarici ölkə alimlərinin problemə həsr edilmiş əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında tədqiq edilir, elmi və təcrübəvi əhəmiyyəti olan bir sıra nəticələr çıxarılır. Qeyd edilir ki, qloballaşan dünya iqtisadiyyatının sürətlə inkişaf edən sahələrindən biri - xidmət sferasıdır.

Xidmət ictimai və fərdi tələbatın ödənilməsi mexanizmi kimi çıxış etməklə, ictimai təkrar istehsalın mühüm həlqəsi olmaqla istehsal, bölgü və istehlak arasında üzvi əlaqə yaratmaqla, insanların rifah halının yüksəldilməsinin sosial alətinə çevrilmişdir.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, qloballaşma prosesi dərinləşdikcə, xidmət sferası beynəlxalq ticarət sektorunun daha sürətlə inkişaf edən sahəsinə çevrilmişdir. Araşdırmalar göstərir ki, hazırda dünyada ixrac həcminin 25%-ə yaxını məhz xidmət sferasının payına düşür. Dünya iqtisadiyyatında ÜDM-in tərkibində xidmət sferasının

xüsusi çəkisi yüksələn xətlə artaraq, onun 70%-dən çoxunu təşkil edir. Lakin Azərbaycanda həmin göstərici 2011-ci ildə 28,3% olmuşdur. Ölkəmizdə xidmət sferasında çalışan işçilərin sayı bütün iqtisadi fəaliyyət növlərində çalışanların 53,2%-ni təşkil edir. İşdə xidmətlərin tipləri, onların tətbiq olunma sferaları cədvəl şəklində göstərilmiş, inkişaf etmiş ölkələrdə göstərilən xidmətlərin təsnifatı verilmiş və onların nəticəsi olaraq qeyd edilir ki, xidmətlər arasmda bir eynilik mövcuddur və bu da onları bir sahə daxilində birləşdirir və maddi istehsaldan fərqləndirir. Apardığımız araşdırmalar nəticəsində xidmət sferasının aşağıdakı xüsusiyyətləri və fərqləndirici cəhətləri qeyd edilir;

> Sahədə əmək prosesi maddi istehsala nisbətən daha yaradıcı və yüksək intellektual xarakter daşıyır;

> Xidmətlərin istehsalı və istehlakı zaman və məkan ərzində üst-üstə düşür;

> Əməyin nəticələri yalnız şəxsi və qeyri-istehsal təyinatlı ictimai istehlakı ödəyir;

> Əksər xidmət sahələrinə bazar mexanizminin məhdudluğu kimi baxmaq olar;

> Xidmət sahəsində tətbiq edilən əmək dəyər yaratmır və bu sahədə istifadə edilən maddi vəsaitlərin dəyəri əməyin nəticələrinin üzərinə keçirilmir. Lakin bazar şəraitində qeyri-istehsal sahələrindəki bir çox xidmətlər dəyər və pul forması alır.

Dissertasiya işində məişət-kommunal xidmətləri sahələrində kiçik sahibkarlıq subyektlərinin yaradılmasının metodoloji aspektləri beynəlxalq təcrübə əsasında tədqiq edilmiş, onların müxtəlif təşkilati-hüquqi formalarının fəaliyyət mexanizminin əsas elementləri cədvəl şəklində ümumiləşdirilmişdir. Qeyd edilir ki, məişət-kommunal xidməti göstərən müəssisələrdə tərəfdaşlıq və Səhmdar Cəmiyyəti idarəetmə forması seçilərkən, onların bütün üstünlüklərindən səmərəli istifadə etmək məqsədi ilə aşağıdakı şərtlər diqqət mərkəzində saxlanılmalıdır:

> Daha çevik və az xərc tələb edən, yüksək informasiya texnologiyası ilə təmin olunan idarəetmə strukturunun seçilməsi . Belə yanaşma qərarların daha tez qəbul edilməsi və onun təşkili prosesinin aydın olmasına, eləcə də istehsalın (xidmətin, işin) son nəticəsinə nəzarətin düzgün aparılmasına təminat yaradacaqdır;

> Müəssisənin qarşıya qoyduğu məqsədə uyğun, təsisçilərin cavabdehliyi ilə qazanılmış mənfəətin vergi ödənildikdən sonra qalan məbləğinin bölüşdürülməsi;

> Xidmət müəşsisələri üçün vergi ödənişi sisteminin maksimal dərəcədə sadə və əlverişli olması;

> Müəssisənin əmlakı üzərində cavabdehliyin qorunub saxlanması;

> investisiyaimkanlarının (cəlbediciliyinin) artırılması.

Əhaliyə məişət və kommunal xıdməti göstərən hüquqi statusa malik kiçik sahibkarlıq subyektləri öz fəaliyyətini planlaşdırarkən, yuxarıda sadalanan şərtləri düzgün qiymətləndirməli və onun nəticələrini strateji ınkişafın meyarına çevirməlidir.

Məişət-kommunal xidməti sferasında yaradılan sahibkarlıq subyektlərinin təşkili və idarə edilməsi prosesində yol verilən nöqsanları aradan qaldırmaq məqsədi ilə yeni müəssisələrin yaradılmasının mərhələləri və məzmununu özündə əks etdirən sxem təklif edilmiş və orada əks etdirilən metodiki yanaşmadan istifadənin məqsədəuyğunluğu əsaslandırılmışdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan bütün xidmət subyektlərinin rolunu artırmaq məqsədilə onlar üçün ayrılan vəsait daha cəlbedici və inkişafa malik müəssisəyə qoyulmalıdır. İnvestisiya cəlbediciliyini müəyyən etmək üçün ilk növbədə maliyyə fəaliyyətinə qiymət verilməlidir. Belə qiymətləndirməmümkün mənfəətin və investisiya qoyuluşunun ödəmə müddətini proqnozlaşdırmağa imkan verir. Bu məsələ ilə əlaqədar iqtisadçı alimlərin müxtəlif yanaşmaları təklif edilərək, məişət- kommunal müəssisələrinin maliyyə vəziyyətinin qiymətləndirilməsi üzrə göstəricilərin təsnifatı təklif olunmuşdur. Eyni zamanda xidmət sferasında kiçik sahibkarlıq subyektlərinin yaradılmasının səmərəliliyinin qiymətləndirilməsi metodikası işlənib hazırlanmışdır.

İşdə respublikada məişət-kömmunal xidmətinin təşkilati-iqtisadi mexanizminin yaradılmasının zəruriliyi əsaslandırılmışdır. Qeyd edilir ki, məişət və kommunal xidməti göstərən kiçik sahibkarlıq subyektləri (KSS) üçün bazarda mövcud olan daimi boşluq müvafıq inkişaf strategiyasının müəyyən qaydalar əsasında formalaşdırılmasını diktə edir. Əhalinin həmin xidmətlərə olan gündəliktələbatının və zövqlərinin dəyişməsi***ilk növbədə*** mövcud istehsalın (xidmətin növünün, formasının, keyfıyyətinin, müddətinin və s.) xarakterinin dəyişməsini tələb edir.***İkincisi***, ayrı-ayrı xidmətin növünə artan tələbat əsasında sahibkar əsas diqqəti məhz həmin növün göstərilməsinə və məzmununun təkmilləşdirilməsinə yönəldir. Nəticədə, sahibkar öz strateji fəaliyyətini lokal formadan qlobal formaya keçirməyə səylərini artırır.

Bazar münasibətləri şəraitində formalaşan rəqabət mühiti məişət və kommunal xidmətinin daxili və xarici mühitdən asılılığını gücləndirərək, onun səmərəli təşkili və genişləndirilməsi üzrə yeni qərarların qəbul edilməsini şərtləşdirir. Müəllifin fikrincə, yeni iqtisadi şəraitdə əhaliyə göstərilən xidmətlərin yeni klassifikatorunun tərtibatına zəruri ehtiyac duyulur. Həmin sənədin mövcudluğu məişət-kommunal xidməlləri üzrə aşağıdakıların icrasına təminat yaratmış olardı:

- Əhaliyə göstərilən xidmət sferasının inkişafı və standartlaşdırılmasının təkmilləşdirilməsi;
- Tələbatçıların əmlakına ziyan vuran, ətraf mühitin qorunmasına şərait yaradan, eləcə də tələbatçıların sağlamlığına, həyatının təhlükəsizliyinə təminat verən, sertifikasiya olunan xidmətin həyata keçirilməsi;
- Əhaliyə göstərilən xidmətin həcminin uçotu və proqnozlaşdırılması;
- Əhalıyə göstərilən məişət-kommunal xidmətinə olan tələbatın öyrənilməsi;
- Fərdi sahibkarlıq və müxtəlif təşkilati-hüquqi formada fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən əhaliyə xidmətin göstərilməsi;
- Ölkədə sosial-iqtisadi şəraitdə xidmət növlərinin aktuallığının təmin edilməsi.

Qeyd edilən təsnifatla yanaşı, müxtəlif sosial-demoqrafik tərkibə malik əhali qrupuna (tənha qocalara, valideynlərini itirmiş əlillərə, şikəst qadınlara və uşaqlara, valideyn hüququndan məhrum olan uşaqlara, əmək qabiliyyətini itirmiş insanlara, əqli və fiziki cəhətdən zəif olan şəxslərə və s.) sosial xidmətlər üzrə 70- ə yaxın milli standartların (sahə və ya müəssisə) tərtibatına və tətbiqinə ehtiyac duyulur. İşdə əhaliyə göstərilən kommunal xidmətin iqtisadi və təşkilati xüsusiyyətləri araşdırılmış, kommunal fəaliyyətin tipləri, onun iqtisadi mexanizmi sxem şəklində əks etdirilmiş və həmin xidmət sferasında böhran vəziyyətinin saxlanılması və dərinləşməsini şərtləndirən: texnoloji, sosial, iqtisadi, ekoloji, siyasi və institusional amillərin təsiri açıqlanmışdır. Qeyd edilir ki, kommunal sferasında islahatları davam etdirməklə daha işlək mexanizmin formalaşdırılmasınaehtiyac duyulur.

Sahənin iqtisadi dayanıqlığını təmin etmək üçünkompleks tədbirlər həyata keçirmək kifayət deyildır, odur ki, mütəmadi olaraq, monitorinqlərin təşkili vacibdir.

Ölkəmizdə bazar münasibətləri dərinləşdikcə, kommunal sferanın büdcədən maliyyələşdirilməsi öz aktuallığını tədricən itirəcəkdir. Deməli, maliyyələşmə mənbəyi kimi, əhalinin və sahibkarların vəsaitləri üstünlük təşkil edəcəkdir.

Dissertasiya işinin **«Sumqayıt şəhərində əhaliyə göstərilən məişət- kommunal xidmətinin təşkilinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi»** adlı ikinci fəslində zəngin statistik, uçot və hesabat məlumatlarının toplanılması, işlənilməsi və ümumiləşdirilməsi, eləcə də aparılan sorğunun məlumatları əsasında Sumqayıt şəhərinin demoqrafik və sosial-iqtisadi durumunun mövcud vəziyyəti qiymətləndirilmiş, pullu xidmətlərin strukturunda məişət-kommunal xidmətlərinin həcminin dəyişilməsinin vəziyyəti tədqiq olunmuş, şəhər əhalisinə göstərilən məişət-kommunal xidmətlərinin növlər üzrə təşkilinin təhlili aparılmışdır.

Qeyd edilir ki, ölkə əhalisinin 3,5%-i, emal sənayesi müəssisələrinin 6,2%- i, emal sənayesi məhsullarının 5,75%-i, bütün təsərrüfat subyektlərinin 6,4%-i, o cümlədən fiziki şəxslərin 5,45%-i Sumqayıt şəhərinin payına düşür. Şəhərdə müxtəlif təyinatlı sosial infrastruktur obyektləri mövcuddur və onların əksəriyyətinin sayı və tərkibi təhlilin əhatə etdiyi dövrdə diqqəti cəlb edəcək səviyyədə yüksələn xətlə artmışdır.

Şəhərdə çoxsaylı sənaye müəssisələri, 100-dən çox tikinti təşkilatları fəaliyyət göstərir. Sənaye müəssisələrinin aşağı güclə işləməsi, bu səbəbdən işçilərin sayının kəskin azalması - xidmət şəbəkələrinin ləğvinə səbəb olmuşdur. İşdə tikinti, nəqliyyat, rabitə fəaliyyəti göstərən müəssisələrin əsas göstəriciləri təhlil edilmiş və çoxsaylı ehtiyat imkanları aşkara çıxarılmışdır. Bu fəsildə eyni zamanda «Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramının (2004-2008-ci illər)» Sumqayıt şəhərində icrasının nəticələri göstərilmiş və orada məişət-kommunal xidmətlərinin təşkili məsələləri ön plana çəkilmişdir.

İşdə pullu xidmətlərin strukturunda məişət-kommunal xidmətlərinin həcmi və quruluşu tədqiq edilərkən, ilk növbədə əsas diqqət pullu xidmətin quruluşunun fiziki həcm indekslərinin dəyişilməsinə yönəldilmişdir. Qeyd edilir ki, 2000-2011-ci illər ərzində əhaliyə göstərilən pullu xidmətin həcmi 7,1 dəfə artmış və nəticədə adambaşına düşən, həmin göstərici 60,2 manatdan 589 manata, o cümlədən məişət xidmətinin həcmi 15,1 manatdan 73,1 manata çatmışdır. Bütünlükdə, 1995- 2011-ci illərdə ölkə üzrə adambaşına düşən gəlir 13,2 dəfə, pullu

xidmətin həcmi 20,3 dəfə, məişət xidmətinin həcmi isə - 3 1,4 dəfə artmışdır.

Əhaliyə göstərilən pullu xidmətin strukturunu xarakterizə edən məlumatların təhlili zamanı müəyyən edilmişdir ki, 2000-2011-ci illərdə bütün pullu xidmət növləri içərisində yalnız rabitə və nəqliyyat xidmətinin xüsusi çəkisi yüksələn xətlə artmaqdadır. Həmin dövrdə məişət xidmətinin xüsusi çəkisi 25%-dən 12,4%- ə enmiş, mənzil-kommunal təsərrüfatı xidmətinin xüsusi çəkisi 14,2%-lə 17,4% arasında dəyişmişdir (Cədvəl 1.).

**Cədvəl 1.**

**Azərbaycanda əhaliyə göstərilən pullu xidmətin quruluşu (faizlə)**

| Xidmətlər | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi xidmət göstərilmişdir | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| O cümlədən Məişətxidməti | 25,0 | 25,2 | 24,9 | 24,5 | 24,3 | 21,9 | 18,7 | 15,5 | 14,3 | 13,4 | 13,0 | 12,4 |
| Sərnişin nəqliyyatı ilə xidmət | 15,1 | 14,6 | 18,0 | 16,4 | 17.2 | 19.6 | 17,7 | 17,4 | 19,3 | 19,3 | 19,2 | 9,1 |
| Rabitə xidməti | 24,5 | 27,0 | 26,3 | 31,8 | 3,2 | 34.2 | 30,6 | 28,2 | 24,4 | 23,0 | 22,2 | 22,7 |
| Mənzil-kommunal təsərrüfatı | 14,2 | 13,8 | 17.5 | 14,7 | 13.0 | 15.1 | 15.8 | 20.4 | 17.6 | 18,0 | 16,8 | 17,4 |
| Təhsil sistemi | 3,4 | 4.8 | 5,0 | 4.7 | 4,2 | 3,4 | 3.6 | 3,0 | 6,4 | 5,8 | 6,5 | 6,8 |
| Mədəniyyət xidmətləri | 1,1 | 1,1 | 1,1 | 1,0 | 0,8 | 0,7 | 1,5 | 1,4 | 2,1 | 2,1 | 2,2 | 2,1 |
| Turizm ekskursiya xidməti | 3,3 | 3,3 | 3,1 | 2,8 | 2.4 | 1.8 | 1,4 | 1,3 | 2,1 | 1,9 | 2,0 | 2,1 |
| Bədən tərbiyəsi və idman | 0,1 | 0,1 | 0,2 | 0,2 | 10,2 | 10,1 | 0,2 | 0,4 | 0,8 | 0,7 | 0,8 | 0,8 |
| Tibbi xidmətlər | 1.3 | 1,4 | 1.3 | 1.3 | 1.2 | 1.1 | 1.8 | 1,7 | 2.5 | 2,4 | 2,7 | 3,1 |
| Sanatoriya-kurort vəsağlamlıq xidməti | 0,5 | 0,6 | 0,7 | 0.7 | 0,7 | 0,6 | 0,7 | 0,7 | 1,3 | 1,2 | 1,1 | 1,2 |

| Hüquq səciyyəli və banktəşkilatları | 1,4 | 1,6 | 1,5 | 1.4 | 1,4 | 1,2 | 4.3 | 4,9 | 4.7 | 4,9 | 6,1 | 5,7 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sair xidmətlər | 10,1 | 6,5 | 0,4 | 0,5 | 0,4 | 0,3 | 3,7 | 5,1 | 5,5 | 7,3 | 7,4 | 6,6 |

Mənbə: Azərbaycanın statistik göstəriciləri, Bakı. "Səda", 2011. s.129«Turizm və xidmət". Bakı. 2012. s.247

Ölkəmizin iri şəhərləri üzrə əhaliyə göstərilən pullu xidmətin səviyyəsini tədqiq edərkən aydın olur ki, 2000-2008-ci illərdə respublika tabeli şəhərlərdə əhaliyə göstərilən pullu xidmətin ölkə üzrə xüsusi çəkisində əsaslı dəyişikliklər müşahidə edilmir. Belə ki, keçən əsrin 80-90-cı illərində olduğu kimi, adı çəkilən xidmətin orta hesabla 66,1%-i Bakı şəhərinin, 2,37%-i Naxçıvan MR; 2,50%-i Gəncə şəhərinin, 2,20%-i Sumqayıt şəhərinin, 0,59%-i Şirvan şəhərinin, 0,78%-i Mingəçevir, 0,05%-i isə Naftalan şəhərinin payına düşür. İlkin hesablamalara görə 2006-2011-ci illər ərzində Sumqayıt şəhərində əhaliyə göstərilən pullu xidmətlərin həcmi 4,8 dəfə, o cümlədən məişət xidmətinin həcmi 2,5 dəfə artmışdır. Nəticədə, adambaşına düşən pullu xidmətin həcmi 87,9manatdan 391,2 manata, o cümlədən məişət xidmətinin həcmi 18manatdan42,2 manata yüksəlmişdir.

Bu fəsildə ölkə əhalisinə mülkiyyət formaları üzrə göstərilən pullu xidmətin həcmi, onun əsas göstəriciləri, əhalinin istifadəsində olan mədəni-məişət və təsərrüfat əşyaları ilə təminat dərəcəsi, ölkəyə idxal olunan maşın- mexanizmlərin və məişət texnikasının sayı ətraflı təhlil edilmişdir. Eyni zamanda burada məişət-kommunal təsərrüfatı üzrə kiçik müəssisələrin özəlləşdirilməsinin vəziyyətinə qiymət verilərək ehtiyat imkanları aşkara çıxarılmışdır .

Olkə əhalisinə göstərilən pullu xidmətlər üzrə əsas göstəricilərə nəzər yetirərkən aydın olur ki, 1995-2011-ci illər ərzində onun həcmi 167,5 mln. manatdan5332,4 mln. man. çatmışdır ki, onun da 2011-ci ildə 4073,9 mln. man. və yaxud 76,4% hüquqi şəxslər statusunda pullu xidmət göstərən obyektlərin payına düşmüşdür. Həmin dövrdə ölkə üzrə adambaşına düşən pullu xidmətin həcmi 22,1 manatdan 589 manata çatdırılmış və yaxud 26,6 dəfə artmışdır. Qeyd edilən illər ərzində əhaliyə göstərilən məişət xidmətinin həcmi də 17,8 dəfə artaraq, 662 mln. man. olmuşdur ki, bu da 2011-ci ildə bütün ölkə əhalisinə göstərilən pullu xidmətlərin 12,4 %-ni təşkil etmişdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2011-cu ilin yekunlarına görə ölkənin sosial-iqtisadi inkişafını əks etdirən

məlumatları nəzərdən keçirərkən aydın olur ki, bu il ərzində əhaliyə 5332,4 mln. manatlıq və yaxud 2010-cu illə müqayisədə 12,9% çox pullu xidmət göstərilmişdir. Həmin artımın 79,4%-i və yaxud 4073,9 mln manatı hüquqi şəxs statuslu müəssisələrin, 20,6%-i və yaxud 1258,5 mln manatı - hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların payına düşmüşdür.

2011-cu ildə hər bir ölkə sakini orta hesabla hər ay 49,1 manatlıq və ya 2010-cu illə müqayisədə 5 man çox müxtəlif növ pullu xidmətlərdən istıfadə etmişdir.

Təhlil zamanı məişət-kommunal xidmətinin təşkili və idarə edilməsində aşağıdakı bir sıra nöqsanların mövcudluğu aşkara çıxarılmışdır. Belə ki, məişət xidmətinin təşkili bəzi mikrorayonlarda və iri yaşayış massivlərində lazımi səviyyədə deyil. Yerlərdə logistikanın zəif təşkili, material-texniki təchizat, ixtisaslaşdırılmış elmi-texniki mərkəzin olmaması, xüsusi milli normativ-hüquqi aktların və dövlət proqramlarının, xarici firmalarla inkişaf etməmiş əlaqə, icra orqanlarının zəif və maraqsız nəzarəti, yeni kommunal xidməti obyektlərinin çatışmaması, həmçinin tez-tez dəyişən moda və modellərin, xarici gündəlik tələbat mallarının (paltar, ayaqqabı, mebel, məişət texnikası, tikinti materiallan və s.) olması öz növbəsində yeni məişət xidməti növlərinin yaradılmasına mənfi təsir göstərir.

Sumqayıt şəhərində əhaliyə göstərilən məişət xidmətinin 1996 və 2011-ci illər üzrə ümumi səmərəlilik göstəricilərinə qiymət verərkən aydın olur ki, həmin hesablanmış göstəricilər yüksələn xətlə artmışdır. Bu ən çox bir obyektə və bir $m^2$sahəyə düşən məişət xidmətinin həcmində, eləcə də adambaşına düşən məişət- kommunal xidmətinin məbləğində müşahidə edilir. Lakin yuxarıda qeyd edildiyi kimi, həmin göstəricilərin səviyyəsini son hədd və yaxud yüksək nəticə kimi qiymətləndirmək, MDB ölkələrinin eyni adlı göstəriciləri ilə müqayisədə lazımsızdır.

2011-cu ildə Sumqayıt şəhəri üzrə kommunal xidmətinin həcmi 13,8 mln. man. olmuşdur ki, bu da 2005-ci illə müqayisədə 3,64 dəfə artım deməkdir.

Bu faktlar onu göstərir ki, respublika tabeli şəhərlərdə, o cümlədən Sumqayıtda, əhaliyə göstərilən bütün növ pullu xidmətin, o cümlədən məişət- kommunal xidmətinin səmərəli təşkili və idarə edilməsi istiqamətində daha təsirli və genişmiqyaslı təşkilatı, sosial-iqtisadi və innovasiya meylli tədbirlərin həyata keçirilməsinə ehtiyac duyulur.

Tədqiqat işinin **«Sumqayıt şəhərində əhaliyə göstərilən məişət-kommunal xidmətinin idarə edilməsi mcxanizminin təkmilləşdirilməsi istiqamətləri»** adlı üçüncü fəslində məişət-kommunal xidməti göstərən kiçik sahibkarlıq subyektlərinə dəstək sisteminin təkmilləşdirilməsinin başlıca istiqamətləri, həmin xidmətlərin səmərəli idarə edilməsi və keyfiyyətinin yüksəldilməsi yolları göstərilmişdir. Qeyd edilir ki, Sumqayıt şəhəri ərazisində əhaliyə məişət və kommunal xidməti göstərən obyektlər qeyri-bərabər şəkildə yerləşirlər. Müasir bərbərlik salonları, foto-atelyelər, təmir emalatxanaları şəhərin mərkəzində cəmləşmişlər. Keçən əsrin 90-cı illərinin sonunda özəlləşdirilən məişət xidməti obyektləri öz təyinatlarını dəyişdirərək, ticarət və iaşə obyektlərinə çevrilmişdir. Kimyəvi təmizləmə, paltarların yuyulması məişət texnikasının, saatların, ayaqqabıların, mebellərin təmiri üzrə obyektlərin sayı kəskin azalmış, avtomobillərin təmiri, qadın bərbərxanaları, qapı-pəncərə, mebel və s. hazırlayan emalatxanalarm sayı artmışdır. Buna baxmayaraq bütünlükdə məişət obyektlərinin sayı şəhərdə ildən ilə azalmaqdadır. Yeni yaşayış sahələrində məişət xidmətləri obyektlərinin təşkili üçün sahə ayrılmır. Yerli bələdiyyə orqanları məişət xidmətinin təşkili və səmərəli yerləşdirilməsi prosesinə fəal cəlb edilmişdir. Sumqayıt şəhərinə aid edilən qəsəbələrdə məişət və kommunal obyektlərinin sayı azdır. İşdə məişət və kommunal xidməti üzrə kadrların hazırlanması, onların ixtisaslarının artırılması məsələsinə diqqətin artırılmasının zəruriliyi vurğulanır.

Xidmət növləri üzrə istifadə edilən texniki şərtlər, qaydalar və standartlar yenisi ilə Sumqayıt şəhəri üzrə məişət və kommunal xidmətinin yeni iqtisadi şəraitin tələblərinə uyğun təşkilini tələb edir. Odur ki, tədqiqat nəticəsində şəhərdə əhaliyə göstərilən məişət xidmətinin idarə edilməsinin təkmilləşdirilməsi və inkişafının başlıca istiqamətlərini bir sxemdə cəmləşdirməyə üstünlük verilir. (şəkil 1).

Məişət-kommunal obyektlərinin qeyri-dövlət mülkiyyətində olmasına baxmayaraq, onların təşkıli və inkişafına dövlətin qayğısı olmadan nail olmaq çətindir. Bu ilk növbədə onunla izah edilir ki, əhaliyə məişət-kommunal xidməti göstərən subyektlər kiçik və ya orta sahibkar firmasıdır.

Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi sistem kimi çıxış edən kiçik sahibkarlığa dövlət dəstəyi istiqamətində həyata keçirilən siyasət aşağıdakı istiqamətləri özündə əks etdirməlidir:

1. Məişət və kommunal xidməti göstərən sahibkarlıq subyektlərinin fəaliyyətinin səmərəli təşkili üçün münbit şəraitin

yaradılması və onların inkişafını ləngidən maneələrin aradan qaldırılması, bu baxımdan onların fəaliyyəti üçün təkmil normativ-hüquqi bazanın yaradılması vacibdir;

2. Kiçik sahibkarlığa dəstək texnologiyası çərçivəsində mütərəqqi maliyyə- kredit sisteminin tətbiq edilməsi;
3. Xidmət növləri və ərazi üzrə kiçik sahibkarlığın prioritet istiqamətlərinin maliyyələşdirilməsi üçün vəsaitlərin və alətlərin cəmləşdirilməsi;
4. Mükəmməl infrastrukturun yaradılması.

Yeni iqtisadi şəraitdə məişət və kommunal xidmətləri üzrə kiçik sahibkarlığın səmərəli təşkili və idarə edilməsi üzrə dövlət siyasətinin




**Şəkil 1. Sumqayıt şəhərində əhaliyə göstərilən məişət xidmətinin idarə edilməsinin təkmilləşdirilməsi və inkişafının başlıca istiqamətləri**

**Şəkil 1. Sumqayıt şəhərində əhaliyə göstərilən məişət xidmətinin idarə edilməsini təkmilləşdirilməsi və inkişafının başlıca istiqamətləri**

aşağıdakı başlıca prinsiplərinə riayət olunmalıdır:

- Kiçik sahibkarlığın inkişafı üzrə dövlət tənzimləmə mexanizminin sistemliliyi və kompleksliliyi;
- Kiçik sahibkarlıq subyektlərinin dəstəyinin məqsədə yönümlüyü və ünvanlılığı;
- Bütün mülkiyyət formalarında mövcud maliyyə, material, informasiya, təbii və digər resurslardan bərabər şəkildə istifadəsinə təminat verilməsi;
- Xarici investisiyalardan istifadə və onların cəlb edilməsi üçün münbit şəraitin yaradılması və müştərək sahibkarlığın inkişafı;
- Kiçik sahibkarlığın inkişafı üçün maliyyə və maliyyə -kredit resurslarının cəmləşdirilməsi və hərtərəfli mobilizasiyası;
- Sahibkarlığa dəstək siyasətinin həyata keçirilməsində dövlətin tənzimləyici funksiyasının gücləndirilməsi;
- Prioritet inkişaf istiqamətlərinin seçilməsi və bütün növ resursların həmin məqsəd üçün cəmləşdirilməsi.

Həmin siyasət kiçik sahibkarlığın inkişafı üçün yaradılan münbit mühit prinsipi əsasında formalaşır, ölkə və yaxud regionda (şəhərdə) yüksək sosial-iqtisadi səmərə əldə etməyə yönəldilir. Bu sahədə yüksək nəticələr əldə etmək üçün ilk növbədə kiçik sahibkarlığa dövlət dəstəyinin prioritet istiqamətləri müəyyən edilməlidir.

Qeyd edilir ki, həmin problemin həllinin birinci mərhələsi ölkədə kiçik sahibkarlığa dövlət dəstəyinin əsas istiqamətlərinin sistemləşdirilməsi və təhlilini əhatə etməlidir (şəkil 2).

Şəkildən göründüyü kimi, dövlət dəstəyinin başlıca istiqamətlərinə - maliyyə-kredit, sosial-siyasi və hüquqi-inzibati tədbirlər kompleksi daxildir. Göstərilən hər bir istiqamət üzrə nəzərdə tutulan tədbirlərin icrası təmin edilməlidir. Hesab edilir ki, həmin istiqamətlərin icrasına nail olmaq üçün onları iki qrupa (təchizat, logistika və idarəetmə, menecment) ayırmaq lazımdır. Bu zaman müvafiq icraçıları da seçmək asan olacaqdır.




**Şəkil 2. Kiçik sahibkarlığa dövlət dəstəyinin başlıca istiqamətləri**

Qeyd edilir ki, məişət və kommunal xidməti sferası xalq təsərrüfatının xidmət yönümlü bütün sahələrini özündə cəmləşdirir və hər bir xidmət növü öz mahiyyətinə görə sosial-iqtisadi sistemdir və idarəetməyə ehtiyacı var.

Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi, yeni texnologiyanın tətbiqi, xidmət növü və formalarından istifadə, normalaşdırma, standartlaşdırma, keyfiyyətin idarə edilməsi, iqtisadi tənzimləmə və s. istiqamətdə elmi-tədqiqat işlərinin aparılması bütünlükdə adı çəkilən xidmət növlərinin inkişafına və səmərəli idarə edilməsinə təminat yaradır.

İşdə tədqiq edilən sferada qeyri-dövlət formalarının vəzifələri və onların tətbiqinin məqsədəuyğunluğu kiçik sahibkarlığa dəstəyin və inkişafın mexanizmi kimi qeyd edilir və əsaslandırılır.

Təcrübə göstərir ki, kiçik sahibkarlığa məişət və kommunal sferasında dəstək məsələsinə regional aspektdə xüsısi diqqət yetirilməlidir. Bu zaman sahibkarların zəmanətli kreditlərdən istifadəyə, investisiya güzəştlərinə, pulsuz məsləhətlərə, sahibkarların öyrədilməsinə xüsusi diqqət yetirilməlidir. Bu məqsədlə, məişət-kommunal sferasında fəaliyyət göstərən kiçik və orta sahibkarlığa dəstəyin stimullaşdırıcı iqtisadi-hüquqi mühitin formalaşması alətlərini özündə əks etdirən sxem təklif edilir və onun tətbiqinin zəruriliyi ön plana çəkilir

Hesab edilir ki, yerli büdcə vəsaiti məişət-kommunal obyektlərinin dövriyyə vəsaitlərinin artırılmasına deyil, məhz kredit faizlərinin ödənilməsinə sərf edilməlidir. Bu zaman aşağı kredit faizlərinin tətbiqi istiqamətində təsirli tədbirlər həyata keçirilməlidir. İşdə belə dəstəyin icra mexanizmi sxemi təklif edilmişdir. Sxemdə əks etdirilən mexanizmin həyata keçirilməsi rəhbər işçilər və mütəxəssislərdən dərin bilik, bazar vərdişləri, mütərəqqi idrak kommunikabelli olmağı, eləcə də regional icra orqanlarının ciddi dəstəyini tələb edir.

Müəyyən edilmişdir ki, istər sahibkarlıq fəaliyyətinin genişləndirılməsi, ona dövlətin dəstəyi, istərsə də regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında komplekslilik və sistemli yanaşma metodları arxa planda qalır və əsas diqqət ayrı-ayrı sosial-xarakterli və bəzən də istehsalın təşkili, yeni obyektin tikintisi, infrastrukturun yeniləşməsi tədbirlərinə üstünlük verilir.

Odur ki, beynəlxalq təcrübəyə əsaslanaraq tərtib ediləcək eyni adlı proqramların aşağıdakı bölmələrdən ibarət olması tövsiyə edilir:

- Kiçik sahibkarlığa, eləcə də ayrıca fərdi sahibkarlara kompleks və sistemli şəkildə dəstəyi həyata keçirmək üçün zəruri təşkilatı-inzibati tədbirlərin formalaşdırılması və həyata keçirilməsi;
- Şəhərin (regionun) sosial-iqtisadi inkişafının mühüm amili kimi, kiçik sahibkarlığın yüksək inkişaf tempinin və perspektivinin müəyyən edilməsi;
- Yeni sahibkarlıq subyektlərinin (o climlədən məişət-kommunal sferası üzrə) yaradılmasını şərtləşdirən, onların fəaliyyətinin səmərəliliyini yüksəltməyə təminat yaradan maliyyə-kredit və investisiya mexanizminin tətbiqi və inkişafı;
- Rəqabətə davam gətirən yeni xidmət növləri və formalarının tətbiqi dairəsinin genişləndirilməsi;
- Kiçik sahibkarlıq subyektlərinin fəaliyyətinin sosial səmərəliliyinin (işçilərin sayının artırılması, gəlirin çoxalması və s.) yüksəldilməsi;
- Məişət və kommunal xidməti göstərən kiçik sahibkarlıq subyektlərinin sosial müdafıəsi səviyyəsinin yüksəldilməsi.

İşdə həmin proqramın məqsədi və vəzifələrinin təsnifatı verilmişdir. Hesab edilir ki, istənilən sosial-iqtisadi inkişaf, regional, ərazi, sahə, bələdiyyə səviyyəsində tərtib edilən proqramın əsasını analitik-informasiya dəstəyi təşkil edir. Bu məqsədlə Sumqayıt şəhəri üçün kiçik sahibkarlığa dəstək (məişət-kommunal xidməti subyektləri nəzərə alınmaqla) proqramının analitik-informasiya elementlərinin əsas alətləri sxem şəklində təklif edilmişdir.

Kiçik sahibkarlığın investisiya təminatı məsələsini nəzərdən keçirərkən, iki mühüm elementi-investisiyaların cəlb edilməsi üçün şəraitin yaradılması və «inkişaf nöqtəsinin» prioritetinin seçilməsi-diqqət mərkəzində saxlanılmalıdır.

Kiçik biznesin vacib tərkib hissəsi sayılan məişət-kommunal sferasında fəaliyyətini koordinasiya edən xüsusi orqanın olmadığından kadrların hazırlığı və onların ixtisaslarının artırılması məsələsi başlı-başına buraxılmışdır. Son illər yaranan zərurətlə əlaqədar məişət texnikasının, avtomobillərin, mobil telefonların təmiri, mebellərin hazırlanması, fotoqrafıya və bərbərlik xidmətləri istisna olmaqla digər çoxsaylı məişət-kommunal xidmətləri üzrə işçilərin ixtisaslarının artırılması, yeni sənətkarların dövlət səviyyəsində hazırlanması məsələsi unudulmuşdur. Bu işdə şəxsi təşəbbüskarlıq və yaxud icra orqanlarınm məcburi addımı üstünlük təşkil edir. Deməli, məişət-kommunal sferası üçün

ixtisaslı kadrların hazırlanması kiçik sahibkarlığa dəstək dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilməlidir.

2015-ci ildə Sumqayıt şəhərinin əhalisi 345 min nəfərə çatacaqdır. Geniş tikinti-quruculuq işlərinin aparılması, əhalinin sayının artması, onların məişət texnikası, avtonəqliyyat, mebel mənzil tikintisi, paltar və ayaqqabı tikilişi ilə yanaşı fotoqrafiya, bərbərlik, kirayə, mərasim və sair xidmətlərə olan tələbatını da artıracaqdır. Bütün bunları nəzərə alaraq və MDB ölkələrinin məişət-kommunal xidmətiəri üzrə iş təcrübələrinə əsaslanaq 2015-ci ildə Sumqayıt şəhəri üzrə əhalinin hər 1000 nəfərinə 9 nəfər məişət xidməti işçisinin xidmət göstərəcəyi gözlənilir. İşdə gələcək dövr üçün məişət xidmətinin növləri üzrə tələb olunan işçilərin və ona müvafıq xidmət sferasına əlavə cəlb ediləcək məşğul əhalinin sayı hesablanmışdır. (bax cədvəl 2).

**Cədvəl 2**

**Sumqayıt şəhəri üzrə əhalinin hər 1000 nəfərinə məişət xidməti göstərən işçilərin tələbata uyğun normativ sayının proqnozu**

| Məişət xidmətinin növü | Şəhərlər üçün hər 1000 nəfərə əhaliyə xidmət göstərən məişət xidməti işçisinin normativ, nəfər | 2009-cu ildə işçilərin faktiki sayına görə hesablanmış normativ, nəfər | 2015-ci il üçün təklif edilən 1000 nəfər əhaliyə məişət xidməti işçilərinin normativi, nəfər | 2009-cu ildə məişət xidməti işçilərinin faktiki sayı, nəfər | 2015-ci ildə təklif olunan normativ üzrə tələb olunan işçilərin sayı, nəfər | Təklif edilən normativə uyğun məişət xidmətinə cəlb ediləcək əlavə işçilərin sayı, nəfər |
|---|---|---|---|---|---|---|
| Ayaqqabı təmiri və fərdi tikiş | 0,89 | 0,13 | 0,50 | 39 | 173 | 134 |
| Palatarların, trikotaj məmulatların təmiri, toxunması və fərdi tikişi | 4,37 | 0,54 | 1,90 | 173 | 655 | 482 |
| Fotoqrafiya xidməti | 0,30 | 0,08 | 0,40 | 24 | 138 | 114 |
| Nəqliyyat vasitələrinin təmiri | 0,40 | 1,20 | 1,22 | 382 | 420 | 38 |
| Radio-televiziya aparatlarının, məişət maşın və cihazlarının təmiri, metal məmulatların təmiri və hazırlanması | 1,0 | 0,08 | 0,29 | 25 | 101 | 76 |
| Kimyəvi təmizləmə və boyanma | 0,20 | 0,04 | 0,16 | 13 | 55 | 42 |
| Mebel təmiri və hazırlanması | 0,26 | 0,20 | 0,29 | 62 | 101 | 39 |
| Bərbərlik xidməti | 2,0 | 1,64 | 2,20 | 522 | 760 | 238 |
| Camaşırxana xidməti, hamam, duş | 0,06 | 0,06 | 0,06 | 18 | 21 | 3 |
| Mənzil tikintisi və təmiri | 0,70 | 0,08 | 1,0 | 24 | 345 | 321 |
| Kirayə məntəqələri | 0,20 | 0,04 | 0,06 | 14 | 21 | 7 |
| Sair xidmətlər | 0,62 | 3,0 | 0,90 | 985 | 310 | -675 |
| Cəmi | 11,0 | 7,1 | 9,0 | 2281 | 3100 | 819(1494) |

**Qeyd: Cədvəl müəllif tərəfindən hesablanmışdır.**

Təklif edilən normativə görə 2015-ci ildə Sumqayıt şəhər əhalisinə 3100 nəfər məişət xidməti göstərəcəkdir. Cədvəldən göründüyü kimi, sair xidmətlər (mərasim xidməti) istisna olmaqla, bütün xidmət növləri üzrə məişət xidmətinə 819 nəfər əlavə işçi cəlb ediləcəkdir.

Yuxarıda sadalanan amilləri və şərtləri rəhbər tutaraq müəllif tərəfindən Sumqayıt şəhəri üzrə əhaliyə göstərilən məişət-kommunal xidmətinin həcminin proqnozu hesablanmışdır (bax cədvəl 3).

**Cədvəl 3.**

**Sumqayıt şəhəri üzrə əhaliyə göstərilən məişət-kommunal xidmətinin həcminin proqnozu (min manatla)**

| Xidmətin növləri | 2009 (bazis) | 2015 (proqnoz) |
|---|---|---|
| Ayaqqabı təmiri və fərdi tikiş | 340,4 | 715 |
| Paltarların, trikotaj məmulatların təmiri, toxunması və fərdi tikilişi | 2845,6 | 6136 |
| Fotoqrafiya xidməti | 257,6 | 568 |
| Nəqliyyat vasitələrinin təmiri və onlara texniki xidmət | 1616,8 | 3978 |
| Radio-televiziya aparatlarının, məişət maşın və cihazlarının təmiri, metal məmulatların təmiri və hazırlanması | 412,6 | 880 |
| Kimyəvi təmizləmə və boyanma | 98,7 | 200 |
| Mebel təmiri və hazırlanması | 433,2 | 950 |
| Bərbərlik xidməti | 1854,6 | 3978 |
| Camaşırxana xidməti | 127,0 | 255 |
| Mənzil tikintisi və təmiri | 124,8 | 1448 |
| Kirayə məntəqələri | 74,3 | 170 |
| Sair xidmətlər | 5013,2 | 9133 |
| Məişət xidməti üzrə, cəmi: | 13198,9 | 28411 |
| Kommunal xidmətinin həcmi | 16450 | 31321 |
| Adambaşına düşən məişət xidmətinin həcmi, man | 41,5 | 82,4 |
| Adambaşma düşən kommunal xidmətin həcmi, man | 51,7 | 90,8 |

İşdə əhaliyə məişət xidməti müəssisələrində keyfiyyətin qiymətləndirilməsinin prinsipial sxemi təklif edilmişdir. Hesab edilir ki, məişət və kommunal xidməti xalq təsərrüfatının ayrılmaz hissəsi olduğundan orada dövlət standartlar kompleksində əks etdirilmiş Dövlət

Standartlar Sistemi (DSS) ilə reqlamentləşən standartlardan geniş istifadə edilməlidir.

Təcrübə göstərir ki, yüksək keyfiyyətli xidmət-müasir dizayna malik, xarici görünüşü daxili tərtibat ilə diqqəti cəlb edən, yüksək ixtisaslı, məşhur ustalarla təmin edilmiş mədəni xidmət göstərən, verilmiş sifarişi vaxtında icra edən müəssisədə mümkündür. Əgər həmin şərtlərə texniki-texnoloji amilləri də əlavə etsək, onda məişət-xidməti göstərən müəssisənin rəqabət qabiliyyətli olduğunu söyləmək olar.

Sumqayıt şəhərində belə müəssisələrin təşkilinə metodiki kömək məqsədi ilə sahibkarların istifadəsi üçün «Məişət xidməti müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi modeli» sxem şəklində təklif edilmiş və keyfiyyət menecmentinin səmərəli təşkilinin, İSO tipli müvafiq beynəlxalq standartların tətbiqinin vacibliyi əsaslandırılmışdır.

Dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş, nəzəri- metodiki və əməli xarakterli kompleks təkliflər irəli sürülmüşdür ki, onların da həyata keçirilməsi əhaliyə məişət-kommunal xidmətinin səmərəli təşkili və idarə edilməsinə, mövcud icra mexanizminin təkmilləşdirilməsinə imkan verə bilər.

Dissertasiya işinin əsas müddəaları, əldə olunmuş nəticə və təkliflər müəllifin aşağıdakı dərc olunmuş əsərlərində öz əksini tapmışdır:

1. Azərbaycanda əhaliyə göstərilən pullu xidmətin təşkilinin mövcud vəziyyətinin tədqiqi. AMEA-nın İqtisadiyyatı İnstitutu «Milli İqtisadiyyatın problemləri» (məqalələr toplusu) 1 buraxılış. Bakı, «Elm», 2008, s.378-383 (həmmüəllif prof. T.N.Əliyev)
2. Kommunal xidmətinin təşkili və idarə edilməsinin metodiki aspektləri. AMEA-nin xəbərləri. Elm və innovasiya seriyası №1-2 (3). Bakı, «Elm», 2010, (həmmüəllif prof. T.N.Əliyev)
3. Azərbaycanda əhaliyə göstərilən məişət xidmətinin təşkilinin tədqiqi və genişləndirilməsi istiqamətləri. AMEA-nın Xəbərləri İqtisadiyyatı elmləri seriyası №4 Bakı, «Elm», 2008 s.87-91
4. Azərbaycanda əhaliyə göstərilən məişət xidmətinin təşkilinin mövcud vəziyyəti və perspektiv inkişafı. AMEA-nın EİM, «Ölkə iqtisadiyyatının inkişafının elmi innovasiyanın rolu» III Beynəlxalq EPK-nın materialları. Bakı «Elm», 2009, s. 141-145
5. Sumqayıt şəhərində əhaliyə göstərilən məişət xidmətinin təşkili və onun yaxşılaşdırılması yolları. AMEA-nın Xəbərləri İqtisadiyyatı elmləri seriyası №2 Bakı, «Elm», 2009, s. 127-130

6. Sumqayıt şəhərində əhaliyə göstərilən məişət və kommunal xidmətlərinin yaxşılaşdırılması yolları. Akademik Z.Səmədzadənin 70 illik yubileyinə həsr edilmiş «Keçid dövrünün iqtisadiyyatı, onun qanunauyğunluqları və xüsusiyyətləri «Milli inkişaf modelinin formalaşması promlemləri» mövzusunda EPK-nın materiallan. Bakı,«Elm», 2010
7. Состояние и пути развития коммунально-бытового обслуживания населения Азербайджана //Вопросы экономических наук (R) İSSN 1728-8878 №5 (38), M, 2009, c.9-15
8. Основные направления развития бытового обслуживания населения города Сумгаита. //«EkohomİcT» Украинский журнал №1,Киев, 2010, c.59-61

**Адалят Баба оглы Азизов**

# Совершенствование механизма организациии управления коммунально-бытовых услуг населению (на примере г.Сумгаита)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трех глав, 7 параграфов, выводов и предложений.

**Во введении** обоснована актуальность выбранной темы, приводится состояние её изученностив республике, сформированы цельи задачи, обоснованы теоретические и методологические основы, научная новизна исследования, дана информация о применении результатов исследования.

**В первой главе «Теоретико-методологические аспекты развития сферы услуг в условиях рыночной экономики республики»** на основе изучения и обобщения отечественной и зарубежной литературы раскрывается экономическая сущность и содержание услуг,изучаются методические аспекты создания малых, предпринимательских субъектов в сфере коммунально-бытовых услуг и формирование их организационно- экономического механизма.

**Во второй главе «Анализи оценка современного состояния оказания коммунально-бытовых услуг населению г.Сумгаита»**на основе сбора и обобщения многолетних статистических, отчетных и учетных данных,также результатов опроса оценивается социально-экономическое и демографическое состояние г.Сумгаита, исследуется изменение объема и структуры платных коммунально-бытовых услуг, а также анализируется организация коммунально-бытовых услуг населению по отдельным видам и выявляются соответствующие резервы.

В **третьей главе «Пути совершенствования механизма управления оказываемых коммунально-бытовых услуг населению г. Сумгаита»** разработаны основные направления совершенствования системы поддержки малого предпринимательства и указываются пути рационального управления и повышения качества оказываемых населению коммунально- бытовых услуг.

В заключительной части работы даны выводы и рекомендации, полученные в результате проведенного исследования.

**Azizov Edalet Baba oglu**

## The improvement of the Administration Mechanism and the Organization of the Public- utilities service for the Population (by example of Sumgayit city)

### RESUME

The thesis consists of the introduction, three chapters, seven sections, the summary and offers.

The introduction is based on the relevance of the chosen theme and shows the state of its study and investigation in the republic. It has formed the goals x objectives of the subject has supported the theoretical and methodological bases, the scientific novelty of the research and has given the information about the application of the investigation results.

The first chapter "The theoretico-methodological aspects of the improvement of service industries in conditions of the market economy of the republic" explains the economical significance and the service content on the basis of the study and generalization of the native and foreign literature; interprets the methodological aspects of the formation of little enterprise subjects* in the sphere of public-untilities service and formation of their administrative and economical mechanism.

The second chapter "The study and the assessment of the current state of the public-utilities service for the population of Sumgayit city" appraises the socio-economic and demographic state of Sumgayit city; studies the changes in the volume and structure of the paid public-untilities service and considers the organization of the public-untilities service for the population according to different types and reveals the appropriate reserves on the basis of the collection & generalization of old statistical, summary and accounting data and the results of the survey.

The third chapter "The ways of improvement of the Administration mechanism of the public-utilities service for the population of Sumgayit city" defines the guideliens for the improvement of the support system of little enterprise and shows the ways of rational administration and the improvement of the guality of public-untilities service.

The conclusion of the thesis presents the summary and offers made as the result of the conducted investigation.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

***На правах рукописи***

**АДАЛЯТ БАБА ОГЛЫ АЗИЗОВ**

# СОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМА ОРГАНИЗАЦИИ И УПРАВЛЕНИЯ КОММУНАЛЬНО-БЫТОВЫХ УСЛУГ НАСЕЛЕНИЮ (НА ПРИМЕРЕ Г.СУМГАИТА)

**Специальность: 5312.01- Отраслевая экономика**

## АВТОРЕФЕРАТ

Диссертации на соискание научной степени доктора философии по Экономике

**Баку - 2014**